## RƏHBƏRİN SAĞLIĞINA

Vətənin dar günləri idi. Vətən bölünür, talanırdı. Düşmənlər vətəni parçalamaq istəyirdilər. Xalq ümidini Heydər Əliyevə bağlamışdı. Hamı onun Naxçıvandan Bakıya gəlməsini tələb edirdi.

Ancaq Heydər Əliyev vətəni bu bəladan, bölünməkdən xilas edə bilər, - deyirdi xalq.

— Heydər Əliyev, gəl bizi bu bəladan qurtar, — deyirdi xalq.

Belə bir gündə Qazaxda bir toyda idim. Məclisin şən yerində bir kişi ayağa durub dedi:

— Yoldaşlar! Mən xahiş edirəm, kim Heydər Əliyevi sevirsə, onun vətənimizin dar günündə Bakıya gəlməsini, dövlətimizə rəhbərliyini istəyirsə, ayaq üstə alqışlasın. İstəməyənlər alqışlamasınlar.

Mən onda sevindim və gördüm ki, hamı ayağa durub əl çaldı və gələcək rəhbəri alqışladı.

***Məmməd Namaz***

***Günəş ömürlü insan. – B. : Təhsil, 2012. – S.13.***